# (HƏDIS (34 10

<"xml encoding="UTF-8?>

HƏDIS (34) 10

Hədis 330: Həzrət Məhəmməd (s) buyurur: “Allah yanında ən yaxşı tövbə günahdan uzaqlaşmaq və peşmançılıqdır.”

* * *

Hədis 331: Həzrət Məhəmməd (s) buyurur: “Qəlbiniz yumşalanda duanı qənimət bilin, çünki qəlbin riqqətliliyi rəhmətdir.”

* * *

Hədis 332: Həzrət Məhəmməd (s) buyurur: “Az ne`mətə şükür etməyən, çoxa da şükür etməz.”

* * *

Hədis 333: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala duada israrlı olanı sevir.”

* * *

Hədis 334: Həzrət Məhəmməd (s) buyurur: “Gülən halda günah edən şəxs ağlayan halda cəhənnəm oduna daxil olar.”

* * *

Hədis 335: Həzrət Əli (ə) buyurur: “Nadanlıq kimi yoxsulluq yoxdur.”

* * *

Hədis 336: Həzrət Əli (ə) buyurur: “Elm kimi  şərəf yoxdur.”

* * *

Hədis 337: Həzrət Əli (ə) buyurur: “Çox mülayim olan kəs peşman olmaz.”

* * *

Hədis 338: Həzrət Əli (ə) buyurur: “Gözəl xasiyyət kimi yoldaş yoxdur.”

”.Hədis 339: Həzrət Əli (ə) buyurur: “Əmmarə (pisliyə çağıran) nəfs ilə cihad kimi cihad yoxdur